# PYESİN ZAMAN VƏ MƏKAN ANLAYIŞI

*Dramaturgiyanın xarakterik xüsusiyyətlərini səciyyələndirən ilkin cəhət zaman və məkan anlayışıdır. Dramaturji materialda təsvir olunan hadisələr, əsərin qəhrəmanları, sözsüz ki, müəyyən zaman və məkan daxilində baş verir vəfəaliyyət göstərir, başqa sözlə desək, insanlar konkret zaman və məkan daxilində yaşayıb yaradırlar. Zaman və məkan bir-birindən ayrılmaz və fiziki fəaliyyət üçün çox vacib təməldir. Bunsuz fəaliyyət olmadığı üçün hər bir dramaturji materialın, hər bir rejissor konsepsiyasının, eləcə də bədii əsərin səhnə təcəssümünün başında zaman və məkan anlayışı dayanır. Əslində zaman və məkan anlayış kimi deyil, fiziki-fizioloji gerçəklik kimi qəbul edilməlidir. İncəsənətin bu sahəsi həyati modeldir. Rejissor quruluş verdiyi tamaşanın səhnə təcəssümündə işini məhz bu model üzərində qurur.*

İncəsənətin teatr növündə bədii modelin, yeni zaman və məkan formulunun yaradıcısı kimi quruluşçu rejissor ilkin yaradıcılıq mərhələsində bunu müəyyənləşdirmirsə, deməli, onun tamaşası əsərin ideyasına xidmət etməyəcəkdir. Çünki tamaşanın dirijoru, başqa sözlə desək, baş idarəedəni sayılan quruluşçu rejissor aktyorla tamaşaçı arasında, eləcə də, səhnə həyatının təşkilatçısı və onun qəbul olunmasında qüdrətli bir vasitəçidir.

Rejissor dramaturji materialın ikinci müəllifi kimi, qəhrəmanların sözləri ilə deyil, hadisələr fövqündə ömür yaşayan dramatik qəhrəmanların hərəkətlərinə və bu hərəkətlər müqabilində yaranan vəziyyətlərə uyğun tərzdə işini qurur.



“İkinci səs” (B. Vahabzadə)

Yazıçı-dramaturq Hidayətin "Bu dünyanın adamları" qəmli komediyasında tamaşanın baş qəhrəmanı Zaman Həsənli deyir: "Görünür, mən vəzifə üçün yaranmamışam, insanları başa düşə bilmirəm ?" Burada qəhrəmanın vurğuladığı fikirlər zamanının iç üzünü açır. Deməli, o, özünü zamanının Adamı saymır. Quruluşçu rejissor məhz bu vəziyyətin zaman və məkan aspektlərini müəyyənləşdirməli və aktyoru ideyaya uyğun qınama priyomuna uğratmalıdır. Bu, sətiraltı mənalandırmaya uyğun vəziyyət gerçəkliyin səhnə təcəssümü kimi dəyərləndirilməlidir. Zamanın həqiqəti konkret məkan həqiqiliyi ilə qəhrəmanın taleyində təzahür tapan bu məqamda tale modeli üzə çıxır.

Rejissor qəhrəmanının sözləri ilə deyil, bu model gerçəkliyi ilə onun taleyini, həyatdakı mövqeyini və sonunda, yəni bu etirafa gəldiyi məqamda faciəsini qabardır.

Yuxarıda qeyd edilən fikirlər tamaşanın zaman və məkan anlayışını xarakterizə edən fikir ötürümünə şamil edilməlidir. Lakin hər bir tamaşanın zaman və məkan musiqisi, plastik həlli, zaman və məkan daxilində fiziki gerçəklik, rejissorun digər yaradıcı həyatlə işi və başqa yaradıcılıq prosesləri də vardır. Bütün sadalanan proses səhnə təcəssümü verilən bədii materialın tələb etdiyi zamanına və məkanına uyğunlaşdırılan həlli tapılmalıdır. Dramatik tamaşa rejissurasında bu vacib cəhət həm konkretləşdirilməli, həm də ümumiləşdirilməlidir.

Zaman və məkanın konkretləşməsi qəhrəmanının yaşadığı yer və vaxtda təyin edilir, lakin ümumiləşmə ideyaya xidmət edir. Tamaşanın hazırlandığı zaman və məkan daxilində bədii materialın dəyərinə, daha doğrusu əhəmiyyətinə diqqət yetirilməlidir. Məsələn: Böyük Vətən Müharibəsinə həsr olunmuş hər hansı bir dramatik əsər bədii dəyəri etibarilə Qarabağ müharibəsi ilə əlaqələndirilə bilər. Əks təqdirdə, həmin əsərin bu gün üçün mahiyyəti bir o qədər də sərfəli deyil. Və ya o əsər öz zaman və məkan çərçivəsindən çıxarılıb, ideyası etibarilə bəşəri duyğulara xidmət etməlidir. Yəni bədii materialın sekulyarlığı səhnə əsərinin təqdim olunduğu zamana və məkana uyğun tərzdə sekulyarlaşdırılmalıdır. Bu zaman tamaşının emosional təsir gücü çox əhəmiyyətli olar. Bunu mürəkkəb karkas içində düşünən, yönəldən tamaşanın quruluşçu rejissorudur. O vacib cəhətlər kimi şərtləndirilən hər bir xırda detala, cizgiyə həssaslıqla yanaşmalıdır.

Vilyam Şekspirin "Hamlet" tamaşasındakı hadisələr zaman və məkan etibarilə bizdən çox uzaqdır. Lakin insan xislətini murdarlayan xəbis hisslər, xeyirxahların xeyirxahlığı nəticəsində müsbətlərin qələbəsi həmişə aktualdır. Quruluşçu rejissor bu aktuallıq düşüncəsi ilə bəşəri hissləri təlqin etməklə yanaşı, bu hissləri aşılayan, hadisələrin təsir gücünü artıran musiqi seçiminə, obrazların geyiminə, onları fiziki cəhətdən təmin edən mizanlara, həmçinin bütün səhnə yaradıcılıq prosesinin emosional aspektinə diqqət yetirməlidir.

Yuxarıdakı fikirlərimizdə musiqinin təsir gücü olduğunu sadəcə qeyd etdik. Quruluşçu rejissorun ən güclü özünü təzahür vasitələrindən biri teatr musiqisidir ki, o, tamaşaçı gözü qarşısında baş verən hadisələrin insan qəlbinə işləməsinə, onu duyğulandırmasına xidmət edir. Musiqi zaman və məkan strukturunun, bütün tamaşa dramaturgiyasının ayrılmaz tərkib hissəsidir. Ona görə də quruluşçu rejissor yönəltdiyi əsərin janrını hələ məşqə başlamazdan öncə müəyyənləşdirir. Bu, rejissoru sonra baş verəcək yanlışlıqdan qurtardığı kimi, həm də onun yaradıcılıq prosesinin uğurunun təminatçılarından birinə çevrilir. Hər hansı zaman və məkan çərçivəsində, hər hansı həyat modelində dramatik vəziyyətlə komik vəziyyət bir-birindən kəskin fərqlənir. Quruluşçu rejissor müəyyən etdiyi zaman və məkan modelində baş verən hadisələri səciyyələndirərkən, istəsə də, istəməsə də bu fərqi tamaşaçıya anlatmağa borcludur. Tamaşaçının bu fərqi görməsindən ötrü rejissor aktyorla işini məhz bu vacib şərt üzərində qurur.

Bəstəkar musiqisi ilə seçmə musiqi arasında fərqi dərk edən quruluşçu rejissor istənilən zaman və məkan daxilində yaranmış, lakin onun məqsədinə, tamaşanın təsir gücünə xidmət edən musiqidən istifadə edə bilər: müasir tamaşada klassik musiqidən, klassik tamaşada müasir musiqidən.

Zaman və məkan anlayışını şərtləndirən vacib xüsusiyyətlərdən biri də tamaşanın bədii tərtibatıdır. Tamaşaçının ilk gördüyü dekorasiyadır. O, məhz bədii tərtibatın köməyilə baxacağı əsərin zaman və məkanını özü üçün müəyyənləşdirir. Təqdim olunan bədii tərtibatın həyat modeli göstəriləcək qəhrəmanların zaman və məkanını qabartmaqla yanaşı, həm də əhvali-ruhiyyə yaradır. Bu vacib şərtiliyin təqdim forması məhz bu baxımdan qüsursuz olmalıdır.



“İblis” (H. Cavid)

Zaman və məkana uyğunlaşdırılmış bədii tərtibat içində obrazların geyimi, qrimi və davranış qaydaları estetik cəhətdən zamanının və məkanının təzahüredicisinə çevrilməlidir. Şah sarayında modern üsulla geyinmiş obrazlar istər-istəməz həm iştrakçıların, həm də tamaşaçıların əhvali-ruhiyyəsinə mənfi təsir göstərib inamı itirəcəkdir. Bu baxımdan, tamaşaçını baxdığı tamaşanın zaman və məkanına kökləmək çox vacibdir.

Hər bir dramaturji material rejissordan məxsusi, yeni, həm də fərdi yanaşma üsulu tələb edir. Fərdiliyi şərtləndirən işləmə üsulları ilə yanaşı, rejissor vacib ümumi tələbləri də unutmamalıdır. Bu tələbi xarakterizə edən iki cəhət var: tamaşanın ritmi və temporitmi. Hər iki cəhət zaman və məkan daxilində düzgün həllini tapdıqca rejissor işi uğurlu olur. Bunun üçün bütün psixofizioloji proses

bir ahəngə köklənməlidir, eyni zamanda, aktyorların səhnə yaradıcılığı prosesində temporitm, yəni obrazların həyat modeli içində fiziki hərəkətlərinin bir-birinə uyğun ahəngi gözlənilməlidir. Bu prosesdə təkcə zahiri, fiziki proseslə kifayətlənmək olmaz. Rejissor aktyoru zaman və məkanın obraza məxsus daxili təbəddülata köklənməyə məcbur etməlidir. Əks-təqdirdə, daxili köklənmə ilə zahiri köklənmənin balansı pozulduğu üçün zaman və məkan içində süni törəmə aydın görünəcəkdir.

Tamaşaların zaman və məkan anlayışının nəzəri aspektlərini analiz etdikcə, bir daha sübut olunur ki, həm rejissor sənətinin, həm də bədii əsərlərin bu vacib cəhətləri dəqiq öyrənildikdən sonra təcəssüm prosesi başlanmalıdır. Bədii informasiyanın zala ötürülməsindən ötrü özünüizhar zaman və məkanın gerçəkliyində cərəyan edir. İnformasiyanın optimal ötürümü və onun tamaşaçı tərəfindən qəbulu üçün konseptual və praktik üsulların vəhdəti yaradılmalıdır. Həyat modelində üsul seçimi quruluşçu rejissora məxsusdur. O, bir tamaşa müəllifi kimi, teatr incəsənətinin zaman və məkan anlayışını yaradıcılığın ayrılmaz tərkib hissəsi və səhnə yaradıcılığının birinci vacib şərti kimi bilməli, dəyərləndirməlidir. Bilik və dəyərləndirmə bacarığı ilə müəyyən olunmuş zaman və məkan daxilində tale modeli həm aktyorlar, həm də tamaşaçılar üçün aydın təbiət lövhəsi yaradır.

Əslinə qalsa, zaman və məkan səhnə bədii ifadə vasitələrinin bir növüdür. Obrazlı ifadə üsulu tamaşanın estetik təqdimatı üçün mühüm rol oynayır. Estetik həllini tapmış zaman və məkan daxilindəki tale modeli estetik təsir bağışlamaqla yanaşı, tamaşaçını öz mühitinə və vəziyyət gerçəkliyinə kökləyir.

Zaman və məkanın düzgün müəyyənləşdirilməsi əsərin səhnə təcəssümü üçün düzgün yol seçmək imkanı yaradır. Belə müəyyənləşdirmə priyomu həm də obraz yaradıcılığı prosesinə varan aktyorun səhnədə düzgün yol seçməsinə, vacib xətt üzərində rahat səhnə davranışına səbəb olur.

Beləliklə, zaman və məkan prosesində belə nəticəyə gəlmək olar.

Zaman və məkan anlayışının düzgün dərk edilməsi, qanun kimi ona riayət edilməsi, qəhrəmanların taleyində baş verən hadisələrin sonrakı inkişafında mühüm rol oynadığı faktı danılmazdır. Bu gün tamaşaçı ilə üz-üzə dayanmış aktyor və ya rejissor işi onu mütləq öz zaman və məkanından ayırıb obrazın zaman və məkanına aparmalıdır. Aktyor obrazın zaman və məkanının çərçivəsində hərəkət edərək - öz zaman və məkanını unudur. Əgər lazımi ciddi təzahürünü tapıbsa, tamaşaçının obrazın zaman və məkanına girə bilməsi üçün münbit şəraitin yaranması mütləqdir. Aktyor obrazın məişətinin qanunları ilə hərəkət edir. Bu məişət isə zaman və məkan fövqündədir.

*Bütün səhnə qanunları ilə yanaşı, zaman və məkan qanununun düzgün bədii həlli rejissoru, həm aktyorların, həm də tamaşaçıların hakiminə çevirir. Bu mütləq hakimliyə nail olmaq üçün hər bir teatr rejissorundan istedad, ağıl, bir də güclü məntiq tələb edilir.*

**Esmiralda OSMANOVA,**
**ADMİU-nun müəllimi**

## Sənət məbədlərimiz



*Milli Dram Teatrı*



*Opera və Balet Teatrı*



*Musiqili Komediya Teatrı*



*Kukla Teatrı*